iki sahil
www.ikisahil.az / www.ikisahil.tv
Şərh
24 noyabr / 2021

AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ:

# Qardaşlığın əbədiyyət rəmzi

## QARDAŞ İKİ ÖLKƏ REGİONDA SÜLHÜN, TƏHLÜKƏSİZLİYİN, İNKİŞAFIN VƏ ƏMƏKDAŞLIĞIN SARSILMAZ QOŞA QANADLARIDIR



**İllərin sınağından çıxmış Azərbaycan-Türkiyə münasibətlərinin istər müharibə, istərsə də postkonflikt dövründə daha da inkişaf etməsi hər iki ölkənin xarici siyasətinin prioritetinə çevrilmişdir. Azərbaycan-Türkiyə əlaqələri bütün türk dünyası üçün nümunədir və bu da həm türkdilli dövlətlər arasında münasibətlərin inkişafı, həm də bölgə ölkələrinin sabitliyi üçün çox önəmli faktordur.**

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın suverenliyini tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən qardaş ölkə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb. 1992-ci il yanvarın 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılıb. Bu vaxtdan etibarən Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlayıb. Diplomatik münasibətlərin yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafında geniş perspektivlər açıb.

Ölkəmizin ən ağrılı problemi olan Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması, İkinci Qarabağ savaşı zamanı Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək bu qardaşlığın bariz nümunəsidir. Belə ki, savaş dövründə ilk günlərdən etibarən Türkiyə Prezidenti açıqlamalar verirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əslində, bu bir çox ölkələr və beynəlxalq təşkilatlar üçün bir mesaj idi, yəni "kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın" anlamını ifadə edirdi.

Qardaşlıq missiyasını layiqincə yerinə yetirən Türkiyə İkinci Qarabağ müharibəsində olduğu kimi, savaş bitəndən indiyədək daim Azərbaycanın yanındadır. Bakıda keçirilən möhtəşəm Zəfər paradında türk dünyasının ikiliderinin yan-yana dayanması qürurverici hadisə idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri çərçivəsində "Şuşa Bəyannaməsi"nin imzalanması mərasimində, eləcə də oktyabrın 26-da Azərbaycana səfəri çərçivəsində Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında da Qarabağın xilası, bərpası istiqamətində görülən işlərdən yaranan sevincini, fərəhini xalqımızla bölüşdü, ölkəmizin əvvəlki kimi tək olmadığını, arxasında dayandığını bütün dünyanın diqqətinə çatdırdı.

Bölgədə artıq icrasına başlanılan və planlaşdırılan layihələrin icrasına Türkiyə şirkətlərinin cəlb olunması isə, şübhəsiz, ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirəcək. Bir sözlə, Türkiyə regionda sülhün, təhlükəsizliyin və dinc yanaşı yaşama prinsiplərinin mövcudluğu üçün bütün imkanlarını ortaya qoyaraq qətiyyətli səylər göstərməkdədir.

Bundan əlavə, müharibə başa çatandan dərhal sonra ərazilərin minalardan təmizlənməsində iştirak etmək və bizim istehkamçılara treninqlər keçirilməsi üçün Türkiyə Müdafiə Nazirliyinin yüzdən çox mütəxəssisi regiona ezam edilib.

Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq sahəsində də vəziyyət ürəkaçandır. Qardaş ölkələr arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq hər iki ölkənin quru qoşunlarının və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi düşmənlərimizə göz dağı oldu. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edildi. Birgə hərbi təlimlərin keçirilməsindən əvvəl də Türkiyə Azərbaycan Silahlı Qüvvələrin formalaşmasına, hərbçilərimizin peşə hazırlığının yüksəlməsinə, təcrübə toplamasına yardım göstərib. Türkiyə Azərbaycanda hərbçi kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb.

Postmünaqişə dönəmində qardaş ölkənin Prezidenti iki dəfə işğaldan azad edilmiş ərazilərimizə səfər edib. İlk səfər bütün dünyaya Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun, həmrəyliyinin əbədi olacağı barədə mesaj verən, ən mühüm tarixi hadisələrindən biri sayılacaq Şuşa Bəyənnaməsinin imzalanması ilə yadda qaldı. Oktyabrın 26-da reallaşan ikinci səfərdə isə iki qardaş ölkə liderlərinin birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində, Zəngilan rayonunda "Dost Aqropark"ın və Zəngəzur dəhlizinin- Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimlərində iştirak etmələri bütün dünyaya verilən birlik və qardaşlıq mesajıdır.

Əgər 44 günlük Vətən müharibəsindəki tarixi qələbədən sonra qardaş ölkənin aparıcı şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərində yaxından iştirakı iqtisadi əlaqələrin inkişafında yeni dövrün başlanğıcının əsasını qoydusa, Yeni Azərbaycan Partiyasının (YAP) və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) arasında imzalanmış niyyət protokolu iki ölkənin siyasi arenasında müxtəlif istiqamətlərdə yaxınlaşmanın müjdəçisidir.

YAP və AKP sədrlərinin - dövlət başçılarının tapşırıqları əsasında iki qardaş ölkənin hakim partiyaları arasında çoxistiqamətli əlaqələrin daha da inkişaf etdirilməsi milli ideologiyaların inkişafına, birgə sosial layihələrin işlənib hazırlanmasına, qarşılıqlı təcrübə mübadilələrinə, eləcə də millət vəkillərinin beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti üzrə koordinasiyanın yaradılmasına təkan verəcək.

Azərbaycan və Türkiyənin iqtidar partiyaları üzv olduqları müxtəlif beynəlxalq siyasi platformalarda bir-birinin maraqlarının qorunmasında, eləcə də müsbət təcrübənin öyrənilərək tətbiqində, gənclərin beynəlxalq fəaliyyətində və digər istiqamətlər üzrə davamlı əməkdaşlıq edəcəklər.

Bu gün qürur hissi ilə qeyd edirik ki, Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Birgə enerji-nəqliyyat layihələri də uğurla icra edilir. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP tarixi layihələrdir. 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu isə regionun yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaqdır. Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Göründüyü kimi, bu gün qardaş ölkə ilə iqtisadi əlaqələr getdikcə güclənir. Bu, dost dövlətdən idxalın artımında da özünü aydın göstərir. Yeri gəlmişkən, 4,5 milyard dollarlıq ticarət dövriyyəsi ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan və Türkiyənin mövcud potensialı əlaqələrin iqtisadi sferada, xüsusən də qarşılıqlı ticarət dövriyyəsinin həcminin indiki ilə müqayisədə xeyli dərəcədə artırılmasına imkan verir. Bu istiqamətdə bir sıra mühüm addımlar atılıb.

Türkiyə ilə Azərbaycan arasında qaz satışı və nəqli ilə bağlı bütün məsələlər razılaşdırılıb. Avropa İttifaqının enerji təhlükəsizliyində böyük rol oynayan Cənub Qaz Dəhlizi məhz Azərbaycanla Türkiyənin birgə həyata keçirdikləri strategiyanın nəticəsidir.

Sarsılmaz Azərbaycan-Türkiyə birliyi və qardaşlığı bundan sonra da yüksələn xətt üzrə daha da inkişaf edəcək və güclənəcək.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***